# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 21

Bakı şəhəri "8" iyun 2017 il

**Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2017-ci il 26 aprel tarixli 14 nömrəli Əmrində dəyişiklik edilməsi haqqında**

"Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2017-ci il 26 aprel tarixli 14 nömrəli Əmrinin 1.1-ci bəndində Şuranın üzvləri hissəsində "Xalid Ələkbərov - Bakı Şəhər İcra Hakimiyyətinin Şəhər təsərrüfatı, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri" sözləri "Nürəddin Osmanlı - Bakı Şəhər İcra Hakimiyyətinin Şəhər ərazisinin Tikinti-planlaşdırma İdarəsinin baş mühəndisi" sözləri ilə əvəz edilsin.

   *Əsas: Bakı Şəhər İcra Hakimiyyətinin Başçısının 2017-ci il 31 may tarixli 7-242/4g nömrəli məktubu.*

2. Elektron idarəetmə və informasiya şöbəsi (C.İbrahimov) bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
3. Ümumi şöbə (E.Rzayeva) bu əmrin surətinin Nazirliyin aparatının aidiyyəti şöbələrinə, Dövlət Enerji Nəzarəti idarəsinə və Bakı Şəhər İcra Hakimiyyətinə çatdırılmasını təmin etsin.
4. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir müavini Gülməmməd Cavadov